


# Beynəlxalq təşkilatların qərar və qətnamələrinin icrasını bu gün Azərbaycan Ordusu təmin edir

***Mən vətəndaşı olduğum ölkənin Prezidentinin, üzvü olduğum siyasi partiyanın sədrinin, Azərbaycanın ərazi bütövlüyünü təmin edən silahlı qüvvələrimizin Ali Baş Komandanının bu qətiyyəti, iradəsi və beynəlxalq aləmdəki nüfuzu ilə fəxr edirəm. Fəxr edirəm ki, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi qətnamələrdəki "Ermənistan silahlı qüvvələri Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılmalıdır" tələbi Prezident, Ali Baş Komandan İlham Əliyevin əmri ilə icra olunur.***



Bir qədər əvvəl Azərbaycana yeddi şərt göndərən Paşinyanın ordusu indi ölkəmizdən qeyd-şərtsiz çıxarılır. Fəxr edirəm ki, ATƏT-in Minsk qrupunun həmsədri olan Rusiya, ABŞ və Fransa prezidentlərinin dəfələrlə dedikləri və rəsmiləşdirdikləri "status-kvo qəbuledilməzdir" ifadəsini Azərbaycan Ordusu reallaşdırır. İndi artıq status-kvo da yoxdur, təmas xətti də...

Dövlət başçımız Azərbaycan xalqına oktyabrın 20-də ünvanladığı müraciətdə bu məsələni daha yaxşı ifadə etmişdir : "Biz döyüş meydanında güc göstərərək status-kvonu dəyişdirdik. Mən bunu bu toqquşmalardan əvvəl demişdim, bir neçə dəfə demişdim, bu gün əfsuslar olsun ki, beynəlxalq münasibətlərdə beynəlxalq hüquq işləmir. Əgər işləsəydi, BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi çoxdan icra edilərdi. Biz iyirmi il gözləyirdik ki, bu qətnamələr icra edilsin. Onlar, sadəcə olaraq, kağızda qaldı. Nə üçün? Çünki siyasi iradə göstərilmədi, bu qətnamələrin icra mexanizmi müəyyən edilmədi".

Azərbaycan Prezidenti həmin siyasi iradəni də ortaya qoydu, qətnamələrin icra mexanizmlərini də müəyyən etdi. Ermənilər sentyabrın 27-dək hesab edirdilər ki, beynəlxalq hüququ daim əzib tapdalaya biləcəklər. Güman edirdilər ki, bundan sonra da bizim torpaqlarımızda istənilən çirkin əməllər törədə bilərlər. Dövlət başçımızın dediyi kimi, biz onları məcbur etdik. Cənab Prezident bu məqamı bir qədər obrazlı şəkildə dilə gətirdi: "Bax, bizim yumruğumuz, sadəcə olaraq, düşmənin başını yaran yumruq deyil. Bizim yumruğumuz bizim birliyimizdir, xalqımızın birliyidir, məqsədyönlü fəaliyyətdir, beynəlxalq müstəvidə bizə sərf edən və ədaləti əks etdirən qərarların, qətnamələrin qəbul edilməsidir".

Ən maraqlısı odur ki, cənab Prezident yüksək səviyyədə qətiyyətlilik göstərərək, düşmənin bundan sonra da qovulacağını deyir: " Onlar artıq bizim qarşımızda diz çöküb, onları diz çökdürmüşük, onlara layiq olan yeri göstərmişik. Qovuruq onları bizim torpaqlarımızdan, bundan sonra da qovacağıq! Hər gün xoş xəbərlər gəlir. Hər gün bayrağımız yeni bir yaşayış məntəqəsində ucaldılır".

Ucaldın o bayraqları, cənab Prezident! Bütün ölkəmiz və xaricdəki dost-qardaşlarımış möhtəşəm mütəşəkkilliklə sizi dəstəkləyir! Bayrağımız həmişə uca olsun! Qarabağ Azərbaycandır!

***Habil QURBANOV,***
***YAP Zaqatala rayon təşkilatının sədri***

Xalq qəzeti 2020.- 22 oktyabr.- S.4.